*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 oktyabr 2020-ci il № 66 (2484) Qiyməti 30 qəpik


*Əks-hücum əməliyyatından reportaj*

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir



Azərbaycan əsgəri əks-hücum əməliyyatını torpaqlarımızı işğaldan azad edəcək döyüş əməliyyatı kimi davam etdirir. Azərbaycan əsgəri işğalı sonlandıracaq döyüşlərdədi...

Azərbaycan əsgəri Böyük Qələbə üçün döyüşür...

Neçə gündü dan yeri bu ovqatla elə gözəl sökülür ki!

Neçə gündü Günəş ucalıqlara bu ovqatla, sevgilərlə sərilir!

Neçə gündü döyüş bölgəsi olan ön xətt könlümüzə daha yaxındı. Döyüş bölgəsindən aldığımız informasiyaları Böyük Qələbənin Cıdır düzünə, İsa bulağına, Ərgünəşə,... yaxınlaşan sədası bilirik. Bilirik ki, bu səs, bu səda böyüyəcək, daha geniş ərazini əhatələyəcək. Bilirik ki, Azərbaycanın müqəddəs üçrəngli bayrağı işğaldan azad edilmiş strateji yüksəkliklərdə, Suqovuşanda, Cəbrayılda olduğu kimi, işğaldan azad ediləcək bütün torpaqlarımızda da əzəmətlə dalğalanacaq!

Neçə gün əvvəl ön xətdə, indi döyüşlərə cəlb olunmuş hərbi hissələrimizin birində ezamiyyətdəydim. Səngərlərdə söhbətləşdiyimiz əsgərlərimizin döyüş əzmini, qələbə ruhunu düşüncələrimizə torpaqlarımızın işğaldan azad edilməsiylə nəticələnəcək döyüşlərin başlanğıcı bilmişdik. Əsgər Elmar Sadıqov demişdi:

- Aprel döyüşlərində məktəbli idim. Çağırışçı yaşlarımda hərbi xidmətdə olmağı, Ali Baş Komandanın əmri ilə başlayacaq döyüşlərdə iştirak etməyi arzulayanlardan biri olmuşam. Hərbi xidmətdən torpaqlarımızı işğaldan azad edən əsgərlərin sırasında tərxis olunmaq istəyirəm. Əsgər yoldaşlarım da mənim kimi...

Elmarın dediklərinin mahiyyətini yarım aydan sonra bu ucalıqda əks-hücum əməliyyatında döyüşən əsgər Amil Həsənov belə ifadə edir: Qürurlanıram ki, döyüşənlərin sırasındayam, qalib əsgər kimi tərxis olunacam.

**(Ardı 6-cı səhifədə)**

# Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib



*Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində olub.*

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verib.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirilib.



# "Bizim muzdlulara ehtiyacımız yoxdur, Azərbaycan Ordusu güclü ordudur"

*Prezident İlham Əliyev Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibəsində Dağlıq Qarabağ münaqişəsində Azərbaycan tərəfində muzdluların iştirakı barədə iddiaları qəti şəkildə rədd edib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti aparıcının bununla bağlı sualını cavablandırarkən belə informasiya tullantılarına görə heyrətləndiyini bildirib. "Fransa Prezidenti ilə telefon söhbətlərimdə mən bizim mövqeyimizi kifayət qədər əsaslandırılmış şəkildə müdafiə etmişəm. Əvvələn, sübutlar təqdim etməsini, əgər belə sübutlar yoxdursa, onda Azərbaycan xalqından üzr istəməsini xahiş etmişəm. İkincisi, mən demişəm ki, bizim muzdlulara ehtiyacımız yoxdur. Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir. Ehtiyatda olanları, döyüşə hazır olan digər hərbiləşdirilmiş dəstələri nəzərə almasaq, bizim nizami orduda 100 min döyüşçümüz var", - deyə dövlətimizin başçısı vurğulayıb.

Fəal döyüş əməliyyatlarının keçirildiyi on gün ərzində muzdluların iştirakına dair Azərbaycan tərəfinə heç bir sübut təqdim edilmədiyini bildirən Prezident İlham Əliyev deyib: "Bu gün Azərbaycan Ordusu bizim əraziləri azad edir. Döyüş əməliyyatları yerindən çəkilmiş videolarda bizim artilleriyanın, pilotsuz uçuş aparatlarının necə işləməsi, azərbaycanlı əsgər və zabitlərin işğaldan azad edilmiş torpaqlarda bayraqlarımızı necə ucaltmaları görünür. Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy sübutlar təqdim etsinlər. Bu gün fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib".

Dövlətimizin başçısı deyib: "Uzun illərdən sonra, praktiki olaraq, müstəqillik dövrünün əvvəlindən başlayaraq beş Xəzəryanı ölkə arasında Xəzər dənizinin hüquqi statusunun nizamlanmasına dair Konvensiya imzalamaqla əldə etdiyimiz nailiyyətlərə baxmaq kifayətdir. Əvvəlcə həmin ölkələrin bəziləri ilə razılığa gələ bilmirdik, lakin sonra biz xoş məram göstərərək razılığa gəldik və bunun üstünlüklərini gördük. Bu gün böyük dövlət olan Rusiya ilə digər böyük dövlət, NATO-nun üzvü olan Türkiyə arasında əməkdaşlıq NATO ölkələri ilə Türkiyənin əməkdaşlığından qat-qat səmimi, möhkəm və səmərəlidir. Məsələn, NATO üzvü olan digər ölkə Türkiyəni daim nədəsə günahlandırır. Bunlar yeni geosiyasi reallıqlardır, 1992-ci ildə bunlar yox idi. Dünya dəyişib. Dünya gözümüzün qabağında dəyişir. Biz bunu əsas götürməliyik, filan ölkənin həll potensialına malik olması barədə hansısa ehkamları, fərziyyələri və ya sabitləşmiş fikirləri yox".

Azərbaycan Prezidenti qeyd edib ki, bu gün münaqişənin fəal fazaya keçdiyi və Ermənistanın baş nazirinin öz telefon zəngləri ilə dünya liderlərini bezdirdiyi bir vaxtda kimin nizamlama potensialına malik olması aşkar görünür.

"Bax, nizamlama potensialına malik olan, ləyaqətinə, ədalətliliyinə, səmimiyyətinə görə Azərbaycanın hörmət etdiyi ölkələr uzunmüddətli sülhün qarantları olacaqlar", - deyə Prezident İlham Əliyev vurğulayıb.

# Tezliklə sağalacam, şərəfli vəzifəmi davam etdirəcəm

*Bu günləri səbirsizliklə gözləyirdik. Torpaqlarımız uğrunda ağır döyüşlər gedir. Əsgər və zabitlərimizdə yüksək döyüş əzmi, vətənpərvərlik ruhu var. Torpaqlarımızın hər qarışı uğrunda canımızdan, qanımızdan keçməyə hazırıq.*



Bu gün döyüşlərdə tariximizin yeni qəhrəmanlıq səhifələri yazılır. O qəhrəmanlıq səhifəsini yazan qüdrətli Azərbaycan Ordusunun əsgər və zabitləridir. Ordumuzun əks-hücum əməliyyatı başlandığı gündən könüllü olaraq döyüşə getdim. Döyüşlərdə əsgərlərimiz çox böyük qətiyyətlə düşmən hücumunun qarşısını aldılar. Onlar son ana qədər səngəri tərk etmədilər. Yüksək əsgəri şücaət göstərərək əks-hücum əməliyyatında fəal iştirak etdilər. Bölmələrimizin rəşadəti sayəsində düşmənin ön xətt eşelonları darmadağın edildi. Sonra strateji cəhətdən əhəmiyyətli olan yaşayış məntəqəmiz düşmən işğalından azad olundu. Hələ qələbələrimiz çox olacaq. Mən də döyüşlərdə yaralandım. Tez bir zamanda sağalıb döyüşçü qardaşlarımın sırasına qayıdacam. Həkim heyəti yaralıların tez bir zamanda sağalıb yenidən döyüşlərə davam etməsi üçün əllərindən gələn köməyi əsirgəmirlər. Bizə göstərdikləri bu yüksək diqqət və qayğıya görə çox sağ olsunlar. Aprel döyüşlərinin də iştirakçısı olmuşdum. Ordumuzun hər bir qələbə xəbəri bizi yeni-yeni döyüşlərə ruhlandırır. Bu günlərdə Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaralıları ziyarəti bizi çox sevindirdi. Onlara dərin minnətdarlığımızı bildiririk. Görüşdə dövlət başçısının çıxışı yaralı döyüşçüləri daha böyük əzmlə döyüşməyə ruhlandırdı.

**Etibar CAMALOV,**
**"N" hərbi hissəsinin zabiti**

# Gərgin döyüşlər Azərbaycan Ordusunun üstünlüyü ilə davam edib

Oktyabrın 8-i günün ikinci yarısından başlayaraq 9-u səhərədək bütün cəbhə boyu gərgin döyüşlər davam edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarətmə və qarşılıqlı əlaqə itib, bölmələri arasında nizamsızlıq yaranıb, şəxsi heyətinin intizamı pozulub, döyüş mövqelərinin tərk edilməsi kütləvi hal alıb.

Dünən həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanıb, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilib.

Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilir. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilib və yaralanıb.

Dünən gün ərzində və ötən gecə ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.

# “Türkiyə heç bir digər şəkildə bu münaqişəyə cəlb olunmayıb”

## Prezident İlham Əliyev “Euronews” televiziyasına müsahibə verib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də "Euronews" televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.*



**- İndi Azərbaycan Prezidenti İlham Əliyev bizimlə bağlantıdadır. Vaxt ayırdığınıza görə təşəkkür edirəm. Atəşkəsin əldə olunması və gərginliyin deeskalasiyası ilə bağlı beynəlxalq ictimaiyyətin güclü və davamlı təzyiqi var. Döyüşlər davam edir, hətta daha da gərginləşir. İndi Sizin münaqişədə məqsədiniz nədən ibarətdir?**

- Atəşkəs birtərəfli qaydada əldə oluna bilməz. Bu, ikitərəfli qərar olmalıdır və həm də yerində həyata keçirilməlidir. Bildiyiniz kimi, sentyabrın 27-də Ermənistan bizə hücum etdi, bizim hərbi mövqelərimizə hücum etdi, infrastruktura ziyan vurdu, mülki şəxslərə hücum etdi. İndiyədək demək olar ki, 30 mülki şəxsimiz Ermənistanın hücumu, o cümlədən ballistik mərmi və kasetli bombalarla törədilmiş hücum nəticəsində həlak olub.

Bizim əks-hücumumuz uğurlu oldu. Biz işğal olunmuş ərazilərimizin bir hissəsini azad etməyə müvəffəq olduq. Bizim əsas məqsədimiz Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir. Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılması ilə bağlı bizə vaxt cədvəli verməlidir və bu cədvəl vasitəçi ölkələr olan Minsk qrupunun həmsədrləri tərəfindən təsdiqlənməlidir. Düşünürəm ki, bundan sonra atəşkəsin əldə olunmasına cəhd göstərilməlidir.

**- Sizin qeyd etdiyiniz ölkələr dəfələrlə atəşkəsə çağırış ediblər. Niyə bu, baş vermir? Niyə Siz bunun dərhal baş verməsi üçün çalışmırsınız?**

- Çünki biz dəfələrlə hücuma məruz qalmışıq. Son üç ayda Azərbaycana üç hücum edilib. Biri iyulda Ermənistan-Azərbaycan sərhədində, Dağlıq Qarabağ regionundan uzaqda olub və Ermənistanın məqsədi Azərbaycanın yeni ərazilərini işğal etmək idi. Onlar bunu etməyə müvəffəq olmadılar. Ordumuz onları məğlub etdi. Sonra avqustun 23-də onlar bizim mülki şəxslərimiz və hərbçilərimizə qarşı terror aktları törətmək üçün diversiya qrupu göndərdilər. Bu da onlar üçün uğursuz oldu. Çünki diversiya qrupunun başçısı saxlanıldı və o, eynilə mənim indi dediklərimə dair ifadələr verir. Sentyabrın sonunda onlar bizim kəndlərimizə və şəhərlərimizə qarşı genişmiqyaslı hücuma keçdilər. Sizə deyə bilərəm ki, bu günə qədər 900 ev tamamilə dağılıb və ya zərər çəkib, mülki şəxslər arasında çox sayda tələfat və yaralı insanlar var. İndi Ermənistan çox acı məğlubiyyətlə üzləşəndə onlar atəşkəs üçün yalvarırlar. Atəşkəsi onlar özləri pozdular, Ermənistan qoşunlarının tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymurlar. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Minsk qrupunun həmsədrləri - ABŞ, Rusiya və Fransa, onların prezidentləri dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymadı, indi isə Azərbaycan özü status-kvonu dəyişir və düşünürəm ki, bu, münaqişənin ən tez zamanda həlli istiqamətində mühüm addım olacaq.

**- Cənab Prezident, bu münaqişənin hər iki tərəfində mülki şəxslər qətlə yetirilib. Siz bunu öz məqsədlərinizlə necə uyğunlaşdırırsınız?**

- Əlbəttə, biz təəssüflənirik ki, mülki şəxslər qətlə yetirilir. Sözsüz ki, bu hücumu biz törətməmişik, hücumun mənbəyi olmamışıq. Çünki bu, sentyabrın 27-də səhər onların etdiyi ilk iş oldu. Onlar bizim şəhər və kəndlərimizə hücum etdilər və biz cavab verməli olduq. Lakin bizim cavabımız əsasən və başlıca olaraq onların hərbi mövqelərinə, tanklarına və silahlarına oldu. Bizim döyüş meydanında etdiklərimiz internetdə var. Bizim dronlarımız və digər avadanlıqlarımız yalnız işğal olunmuş ərazilərdə hərbi hədəfləri məhv edir. Əfsuslar ki, Ermənistan yerlərdə daha çox adamın olması üçün mülki şəxslərdən istifadə edir. Çünki onların demoqrafik vəziyyəti çox pisdir və bizdə, sadəcə, silahların yanında mülki şəxslərin olması ilə bağlı videolar var və əlbəttə ki, əgər şəxs oradadırsa...

**- Sözünüzü kəsdiyimə görə üzr istəyirəm, cənab Prezident. Ermənistan deyə bilər ki, bu döyüşdə onlar tərəfdən mülki şəxslər qətlə yetirilib və onlar bu zorakılığın niyə yenidən sentyabrın 27-də alovlandığını mübahisə edərlər. İcazə verin, Xarici İşlər nazirinizin ötən il verdiyi vədi qeyd edim. Deyilmişdi ki, xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərin görülməsi vacibdir. Bizim hazırda gördüklərimiz bunun əksidir. Siz mülki şəxslərin əzablarını necə məhdudlaşdırmağa çalışırsınız?**

- Bilirsiniz, biz müharibənin başlanmasına görə məsul deyilik. Dediyim kimi, biz Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Ermənistan ordusunun fiziki hücumuna məruz qalmışdıq. Bundan əlavə, Ermənistandakı indiki rejim danışıqlar prosesini məhv etmək üçün hər bir şeyi etmişdir. Düz bir il bundan əvvəl Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş ərazisində keçirilən aksiyada "Qarabağ Ermənistandır" bəyan etmişdir. Bu bəyanat faktiki olaraq danışıqlar prosesini məhv etdi. Çünki danışıqlar masasında olan və münaqişənin həlli üçün əsas təşkil edən prinsiplər işğal altındakı ərazilərin Azərbaycana qaytarılmasını tələb edir. Ermənistanın baş naziri Azərbaycana bir santimetr torpağın belə qaytarılmayacağını, "Qarabağ Ermənistandır" deyəndə, onlar Cenevrə Konvensiyasının kobud pozuntusu sayılan əcnəbi şəxslərin işğal olunmuş ərazilərdə məskunlaşmasını təşkil edəndə danışıqlar prosesini məhv edirlər. Bundan sonra bizi buna görə günahlandırmaq üçün onlar bizə üç dəfə - iyul, avqust və sentyabr aylarında hücum edirlər. Biz onları döyüş meydanında məğlub etdikdə onlar Azərbaycanı dayandırmaq üçün hər kəsə zəng edir və hər kəsə yalvarırlar. Biz dayanmaq istəyirik, lakin biz işğalın dayanmasını istəyirik. Buna görə Ermənistanın ünvanına əsas mesaj ondan ibarət olmalıdır ki, biz Ermənistanın torpağında deyilik, biz öz torpağımızdayıq. Bizim torpağımız 27 il ərzində...

**- Ermənistan Türkiyənin burada ciddi təsir göstərdiyini, o cümlədən hərbi yardım kimi məsələlərdə sizi təchizatla təmin etdiyini deyəcək. Siz Türkiyənin bu münaqişədə ölkənizə nə dərəcə təsir göstərdiyini və hərəkətlərinizi sürətləndirdiyini deyə bilərsiniz?**

- Bu, tamamilə yanlış informasiyadır. Türkiyə bizim üçün güclü müttəfiq, tərəfdaş və qardaş ölkədir. Əlbəttə ki, onların verdiyi bəyanatlar onların mövqeyini ifadə edir və biz bu dəstəyə görə Türkiyə hökumətinə, Türkiyə Prezidentinə və Türkiyə xalqına minnətdarıq. Lakin Türkiyə heç bir digər şəkildə bu münaqişəyə cəlb olunmayıb. Ermənistan mediaya belə feyk xəbərlər yaymaqla Azərbaycan Ordusunun bacarığını azaltmaq istəyir. Biz özümüz savaşırıq. Bəli, biz Türkiyədən silahlar alırıq, lakin biz təkcə onlardan almırıq. Bizim əsas silah təchizatçımız Türkiyə deyil. Yəqin bu barədə hər kəs bilir. Beləliklə, bizim müasir türk avadanlığını, o cümlədən döyüş dronlarını almağımız faktı heç kim üçün problem olmamalıdır. Çünki Ermənistan silahları pulsuz əldə edir. Biz onlara görə pul ödəyirik, Ermənistan pulsuz alır. Türkiyə heç bir digər şəkildə münaqişəyə cəlb olunmayıb.

**- Biz burada silahlar və döyüş barədə danışmağa davam edirik. Diplomatiya Sizin üçün hələ də bir seçim yoludurmu? Bu münaqişədən fərqli çıxış yolunu tapmaq üçün Siz Ermənistanın baş naziri ilə bir araya gəlib danışıqları apararsınızmı?**

- Sizə deyə bilərəm ki, prezidentlik müddətimdə Ermənistanın iki sabiq prezidenti və indiki baş naziri ilə bəlkə də onlarca danışıq aparmışıq. Əvvəlki debatlar ərzində biz danışıqlar masasında əsaslı irəliləyişə nail olmuşduq. Biz bugünkü münaqişənin həlli üçün prinsipləri işləyib hazırlamışdıq. Biz konstruktiv idik. Danışıqlar 1992-ci ildən bəri davam edirdi. Təsəvvür edirsiniz? Demək olar ki, 30 il müddətində biz ümidlərlə yaşayırdıq. Vasitəçilər bizə "bir az gözləyin, Ermənistan tərəfindən daha konstruktiv yanaşma olmalıdır" deyirdilər. Lakin iki il bundan əvvəl dövlət çevrilişi nəticəsində bu baş nazir hakimiyyətə gələndən sonra danışıqlar prosesini tamamilə məhv etdi. Mənim onunla dəfələrlə görüşlərim olmuşdur, lakin bu görüşlər tamamilə mənasız idi. O, mənə əraziləri geri qaytarmayacaqlarını dedi, onlar Dağlıq Qarabağın Ermənistana birləşməli olduğunu deyirdi. Beləliklə, bunlar mənim üçün tamamilə qəbuledilməz tələblər idi və onlar vasitəçilər üçün də qəbuledilməz idi. Ermənistan hökuməti mövqeyini dəyişməlidir, maksimalist mövqeyindən çəkinməlidir, "Qarabağ Ermənistandır" deməyi dayandırmalıdır. Çünki bu, həqiqət deyil, danışıqlar prosesini məhv edir və əlbəttə ki, biz geriləyirik. Yeri gəlmişkən, sabah bizim Xarici İşlər nazirimiz Minsk qrupunun səfirləri ilə görüşmək üçün Cenevrədə olacaq. Mən bildiyim qədər, Ermənistanın xarici işlər naziri oraya ayın əvvəlində getməli idi, lakin o, buna məhəl qoymadı. O, orada deyil. Bizim Xarici İşlər nazirimiz oradadır. Bu, kimin danışıqlar aparmaq istədiyini, kiminsə, sadəcə, Azərbaycanı günahlandırmaq istədiyini nümayiş etdirir.

**- Prezident İlham Əliyev, "Euronews"un xüsusi buraxılışında bizə qoşulduğunuz üçün Sizə təşəkkür edirəm. Bizə vaxt ayırdığınız üçün çox sağ olun.**

- Təşəkkür edirəm.

# Azərbaycan Ordusu Qələbələr qazanır

*Azərbaycan Ordusu Ali Baş Komandanın sərkərdəliyi ilə əks-hücum əməliyyatını uğurla davam etdirir. Əməliyyat başlayandan bəri əldə edilən qələbələr əsgər və zabitlərimizin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının nəticəsidir. Ordumuzun döyüşdə qazandığı qələbələr Böyük Qələbəni yaxınlaşdırır. Neçə-neçə yaşayış məntəqəsi, strateji yüksəkliklər, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qəhrəmanlıq göstərdiyi, şəhid olduğu mövqe, Talış kəndi, Suqovuşan, Cəbrayıl rayonunun mərkəzi və kəndləri düşməndən azad edildi. Qalibiyyət döyüşünü davam etdirən ordumuz yaxın günlərdə torpaqlarımızı işğaldan tamamilə azad edəcək.*

*Əks-hücum əməliyyatlarında iştirak edən döyüşçülər təəssüratlarını bizimlə bölüşdülər.*



**Zabit Rahib Babayev:**

- Ermənilər növbəti dəfə təxribata əl atdılar. Terrorizmi dəstəkləyən, vandalizmə xidmət edən düşmən ordusu iriçaplı silahlardan, o cümlədən artilleriyadan istifadə etməyə başladı. Ordumuz düşməni hər tərəfdən atəşə tutdu. Mövqelərinə nəzər salanda onların çaş-baş qaldıqları açıq-aşkar hiss olunurdu. Komandanlığın verdiyi tapşırıqları bölməmiz uğurla icra etdi. Qoşunlarımızın atdığı konkret addımlar nəticəsində düşmən xeyli itki verdi. Bu gün Ermənistan yas içindədir. Hər birimiz əsgərlərimizlə bir sırada düşmənin üzərinə getdik, onları tarixi ərazilərimizdən uzaqlaşdırdıq. Ordumuzun qəsbkarlara verdiyi kəsərli cavab nəticəsində işğaldan azad olunan torpaqlarımızın sevindirici xəbəri əminik ki, təkcə ölkə daxilində deyil, ölkə hüdudlarından kənarda da həmyerlilərimizə qələbə sevinci bəxş etdi. Uğurlu döyüşlər hələ davam etdikcə, Azərbaycan əsgəri daha Böyük Qələbələr qazanacaq. Danılmaz faktdır ki, müharibə heç zaman qansız-qadasız olmur. Bu döyüşlərdə də itkilərimiz oldu ki, onların hər birinin ruhu qarşısında baş əyirik.

Əminliklə deyə bilərəm ki, hərbçilərimizin gərgin əməyi sayəsində daha əlverişli mövqelər düşməndən azad olundu ki, bunun nəticəsində düşmənə nəzarətimiz daha da möhkəmləndi, ölkəmizin düşmən üzərində üstünlüyü daha da artdı. Ordumuzun düşmən üzərində qazandığı qələbələr bütün dünyaya bir daha mesaj oldu. Mesaj ondan ibarət oldu ki, Azərbaycanı öz haqq mübarizəsindən heç kim daşındıra bilməz. İllərdir beynəlxalq qurumların, mühüm təşkilatların bərpa edə bilmədiyi ədaləti bu gün Azərbaycan əsgəri bərpa edir. Haqq-ədalət gec-tez öz yerini tapır. Bu gün Azərbaycan Ordusu işğalda olan torpaqlarımızın müqəddəratını özü həll etmək iqtidarındadır.

**Zabit Elçin Yolçuyev:**

- Düşmən sentyabrın 27-də atəşkəs rejimini yenidən pozdu. Komandanlıq tərəfindən düşmənə adekvat cavabın verilməsi ilə bağlı müvafiq tapşırıqlar aldıq. Mülki əhalinin təhlükəsizliyini təmin etmək istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin görülməsi istiqamətində qərar qəbul edildi, düşmənə qarşı əks-həmlə əməliyyatlarına başladıq. Düşmənə ordumuz tərəfindən sarsıdıcı zərbələr endirildi. Bu gün ordumuz mətin addımlarla öz müzəffər yürüşünü davam etdirir. Döyüş tapşırığı alanda



çox sevindim, döyüşlərə girəcəyimə görə qürurlandım. Hər bir azərbaycanlının arzusunda olduğu o günün iştirakçısı olmaq mənə iftixar hissləri yaşatdı. Düşmən itki verərək geri çəkilirdi. Ölkə rəhbərliyinin və xalqın bizə olan inamı bizi daha da ruhlandırır. Yorğun, yuxusuz gecələrdə bizi ayaqüstə oyaq saxlayan məhz onların bizə olan etimadı və Vətən sevgisidir. Bir döyüşçüyə bundan artıq nə lazımdı?! Xalqın dəstəyindən və torpaqdan güc alan əsgərin qarşısında heç bir manea tab gətirə bilməz. Bizim mübarizəmiz haqq mübarizəsidir.

**Zabit Nüsrət Tağızadə:**

- Əzəli və əbədi torpaqlarımızı düşməndən azad edənlərin sırasında olmaq ən böyük arzum idi. Bu gün mənfur düşmənin qəsbkarlıq planı Ali Baş Komandanımızın uğurlu xarici siyasəti nəticəsində dünyaya bəllidir. Azərbaycanı bu haqq işində dəstəkləyən dövlətlər onun yanında olduğunu bildirirlər.

Sentyabrın 27-də düşmən bütün cəbhə boyu iriçaplı silahlardan və artilleriya vasitələrindən hücuma keçdi. "Həyəcan" çağırışı ilə az bir müddətdə düşmən hücumunun qarşısı alındı. Ordumuz komandanlığın tapşırığı ilə əks-hücum əməliyyatına başladı. Qəhrəman zabit və əsgərlərimiz bu döyüşlərdə böyük hünər və rəşadət göstərdilər. Düşmənin silahlı birləşmələri igid oğullarımızın qəhrəmanlığı qarşısında duruş gətirə bilməyərək geri çəkilməyə başladı. Qısa müddətdə bir sıra strateji əhəmiyyətli ərazilər düşməndən azad edildi. Bölmələrimizin döyüş əzmi yüksəkdir. Azərbaycan əsgəri ruh yüksəkliyi ilə döyüşdən-döyüşə atılır. İşğalda olan torpaqlarımızın azad olunmasında iştirak etməyi, üçrəngli bayrağımızı bütün Qarabağda dalğalandırmağı yaşam amalı bilir.

Böyük Qələbənin astanasındayıq. Rəşadətli ordumuz xalqımızı, millətimizi qələbə xəbərləri ilə sevindirməkdədir. Ali Baş Komandanın rəhbərliyi ilə qorxubilməz oğullarımızın bütün torpaqlarımızı düşmən əsarətindən azad edəcəyi gün çox yaxındadır. Döyüş meydanında düşmənə göz açmağa imkan verməyən Azərbaycan Ordusu xalqımızdan güc, qüvvət almaqdadır. Ərazi bütövlüyümüzü bərpa etmək bizim haqq işimizdir. Qüdrətli ordumuz bu haqq savaşından Böyük Qələbə ilə çıxacaq. Qarabağ Azərbaycandır və qalibiyyət Azərbaycan Ordusunundur.

**Gizir Rauf Mehdiyev:**

- Azərbaycan Ordusu əks-hücum əməliyyatını qələbələrlə davam etdirir. Bütün istiqamətlərdə düşmənin müdafiə istehkamları darmadağın edilib, yüzlərlə döyüş texnikasını, artilleriya qurğusunu itirən düşmən çətinliklə, ağır itkilər bahasına müdafiə olunur. Düşmən Azərbaycan əsgərinin qətiyyəti qarşısında dayana bilmir.

Biz əks-hücum əməliyyatını Böyük Qələbə ilə başa çatdıracağıq.

Düşmən nə qədər ciddi müdafiə olunmağa cəhd göstərsə də, buna nail ola bilmir. Hücumlarımız qəsbkarın iradəsini, arzusunu çilik-çilik edir, ayaqlar altına atır.

Vəziyyət gərginləşəndə ermənilər yeganə çıxış yolunu qaçmaqda görürlər, yəni, Azərbaycan əsgəri ilə vuruşmağa cəsarətləri çatmır.



Azərbaycan əsgəri neçə-neçə döyüş texnikası vurulan düşmənin döyüş əzmini də darmadağın etdi. Bu, döyüş texnikalarını atıb qaçan ermənilərin təkcə qorxaqlığını deyil, həm də ordularına sədaqətlərinin olmadığının təsdiqidir. Düşmən belə ordu ilə dünyanın ən güclü ordularından biri olan Azərbaycan Ordusunun əks-hücumunun qarşısını ala bilərdimi? - Qətiyyən ala bilməzdi...

Əks-hücum əməliyyatı torpaqlarımız işğaldan tamamilə azad olunana kimi davam edəcək. Biz bu əməliyyatı tam qələbə ilə başa çatdıracağıq.

Həmişə bir amalla xidmət edirik: torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedəcək döyüşlərin iştirakçısı olmaq. İndi arzuma çatmışam. Bu döyüşlərdə Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə döyüşürük.

**Əsgər Soltan Rəfiyev:**

- Qəhrəman babalarımızdan bizə miras qalan tarixi torpaqlarımızın işğaldan azad olunduğu bu günlərdə şanlı ordumuzun sıralarında müqəddəs borcumu yerinə yetirməkdən qürur duyuram. Döyüşlər başlayan gündən bütün əsgərlərin sevincini sözlərlə ifadə etmək çətindir. Bizlər müddətli həqiqi hərbi xidmətimizi Böyük Qələbə qazanmış qalib ordumuzun sıralarında başa vuracağıq. Canımız, qanımız bahasına da olsa Ali Baş Komandanımızın rəhbərliyi ilə qazanacağımız bu qələbəni bütün dunyaya bəyan edəcəyik. O möhtəşəm gün uzaqda deyil.

Ordumuz düşmənin hücumunun qarşısını alaraq əks-hücum əməliyyatına başlayıb. Qüdrətli ordumuz düşmənin arzusunu ürəyində qoyaraq ona döyüş meydanında göz açmağa imkan vermir. Tam əminliklə deyə bilərəm ki, bu döyüşlər işğalda olan torpaqlarımızın azad olunması ilə başa çatacaq. Ən müasir silah-sursatla təchiz olunan ordumuz düşməni əzəli və əbədi torpaqlarımızdan çıxaracaq, xalqımızı ard-arda sıralanan qələbə xəbərləri ilə sevindirməyə davam edəcək. Bizi bu qələbələrə ruhlandıran xalqımızın sonsuz sevgisi, inamı və dəstəyidir.

Ərazi bütövlüyümüzün bərpası üçün döyünən ürəklərimizin hərarəti düşmənin sonunu gətirəcək. Ömrümün ən unudulmaz günlərini yaşayıram. Xalqımın bu haqq savaşında müzəffər ordumun sıralarında olmanın verdiyi fəxarəti heç nə ilə müqayisə edə bilmərəm. Qarabağ Azərbaycandır. Qalibiyyət Azərbaycan Ordusunundur.

(Ardı 5-ci səhifədə)

# Azərbaycan Ordusu Qələbələr qazanır

(Əvvəli 4-cü səhifədə)

**Əsgər Nicat Muradov:**

- Tarixə nəzər salanda görürük ki, qəhrəman xalqımız bir çox qələbələrə imza atıb. Bu günlər də tarixə yazılır. Bu tarixi Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri yazır. Vətən müharibəsinin döyüşçüsü olmaqdan qürurluyam.



Döyüşlər başlayan gün düşmən iriçaplı silahlardan və artilleriyadan istifadə etməklə mövqelərimizi və dinc əhalini atəşə tuturdu. Tapşırığa əsasən düşmən cavab atəşi ilə susduruldu və əks-hücum əməliyyatına başlanıldı. Qısa bir zamanda düşmən işğalında olan bəzi yüksəkliklər azad olundu. Ordumuzun döyüş hazırlığının yüksəkliyindən özünü itirən düşmən təxribatlarının bu qədər sərt cavablanacağını gözləmirdi. İllərdir bu günün həsrəti ilə xidmət edən ordumuzun döyüş əzmi qarşısında heç bir çıxış yolu görməyən düşmən arxaya belə baxmadan qaçırdı. Ermənilər silahlarını, zirehli texnikalarını, maşınlarını, meyitlərini, hətta döyüş bayraqlarını belə ataraq qaçırdılar. Bu döyüşlərdə ordumuzun hər bir əsgəri irəliyə can atırdı. Vətən torpağının hər qarışını canından əziz bilən döyüş yoldaşlarımın vətənpərvərliyi ilə qürur duyuruq. İşğaldan azad olunan ərazilərimizdə üçrəngli bayrağımızın sancıldığı an keçirdiyimiz hissləri sözlərlə ifadə etmək çox çətindir. O ərazilərdə, o yüksəkliklərdə dalğalanan bayrağımızdan hər bir döyüşçü güc, qüvvət alır.

Bizim güclü ordumuz, vətənpərvər, qorxubilməz döyüşçülərimiz var. Bu gün ordumuz öz gücünü döyüş meydanında düşmənlərimizlə bərabər, bütün dünyaya da sübut edir. Qətiyyətlə deyə bilərəm ki, Qələbə bizimdir.

**Əsgər Nicat Quluzadə:**

- O ordu yenilməz və güclüdür ki, əsgəri öncə öldürməyə və düşünmədən Vətən uğrunda ölməyə hazırdır. Qəlbində vətənpərvərlik ruhu hakim olan əsgərin, döyüşçünün qarşısında ən müasir silahlara sarılmış düşmən belə tab gətirə bilməz. Necə ki, bu gün Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin döyüş uğurlarına dost da, düşmən də şahidlik edir.

Sentyabrın 27-də ordumuz günə düşmənin ağır artilleriya silahlarının atəşinə cavab verərək başladı. Komandanlığın əmri ilə ordumuz əks-hücum əməliyyatına başladı. Gərgin döyüşlərə atıldıq. Qüdrətli ordumuzun qəhrəman zabit və əsgərləri bu döyüşlərdə böyük hünər və rəşadət göstərirlər. Aprel döyüşlərində "məğlubedilməz ordu" mifini darmadağın etdiyimiz düşmən qarşımızda aciz idi. Əks-hücum nəticəsində qəsbkarların nəzarətində olan mühüm yüksəkliklərimizi işğaldan azad edərək, ermənilərin çox sayda canlı qüvvəsini məhv etdik. Son günlər qazanılan bu uğurlar Azərbaycan Ordusunun gücünü, qüdrətini, qələbə əzmini nümayiş etdirir.

Üçrəngli bayrağımızın işğaldan azad olunan torpaqlarımızda dalğalanmasını görmək qürurvericidir. Rəşadətli ordumuzun sıralarındakı qaliblərin işğalı sonlandıracağına əminik. Bu gün bütün dünya azərbaycanlılarının ürəyi Qarabağda döyünür. Bu haqq savaşında Qələbə bizimdir. Qarabağ Azərbaycandır.

**Çavuş Kənan Orucov:**

- Torpaqlarımızın son qarışı azad olunanadək döyüşəcəm. Silahı əlimdən yerə qoymayacam. Bütün döyüşçü yoldaşlarım yalnız bir amalla vuruşur. Azərbaycanımızın ərazi bütövlüyü təmin olunmalıdır. 20 faiz torpaqlarımızı işğal edən Ermənistan silahlı qüvvələri tarixi torpaqlarımızdan qovulmalıdır. Bəsdir daha, səbrimiz tükəndi. Artıq bir neçə gündür ki, qüdrətli Azərbaycan Ordusu geniş və güclü əks-hücumlarla erməni faşistlərini qaçmağa məcbur edir. Artıq ermənilər qorxularından Qarabağda döyüşmək istəmirlər. Onlar çox gözəl anlayırlar ki, işğal etdikləri o torpaqlar azərbaycanlılarındır. Ona görə də düşmən silahını, səngərini qoyub qaçır, "məni öldürməyin", - deyə Azərbaycan əsgərinə yalvarır. Strateji əhəmiyyətli yüksəkliklər rəşadətli ordumuzun nəzarətindədir. Qəsbkarlar bütün istiqamətlərdə səngərini, postunu qoyub qaçır. Düşmənin çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını məhv etmişik. Atıb qaçdıqları saz vəziyyətdə olan döyüş maşınlarını, silah-sursatlarını götürmüşük. Azərbaycan əsgərini ruhlandıran odur ki, o öz doğma torpaqları uğrunda döyüşür. Bəs erməniləri nə ruhlandıracaq? Heç nə. Özgə torpağı uğrunda döyüşmək? Ona görə də erməni bölmələrində mənəvi-psixoloji ruh yoxdur. Bölmələrimizin sarsıdıcı zərbələri onları pərən-pərən salıb. Uğurlu döyüşlərimiz davam edir. Əsgərlərimiz döyüşlərdə qəhrəmanlıq, hünər göstərirlər. Ali Baş Komandanımızın qətiyyətli addımları, düşmənə sarsıdıcı zərbələr vuran çıxışları bizə cəbhədə daha böyük ruh verir. Xalqımızı daha yeni qələbə xəbərləri ilə sevindirməyə ruhlandırır. Tezliklə Qarabağımızda, Şuşamızda, Laçınımızda, Kəlbəcərimizdə, bütün işğalda azad olunacaq torpaqlarımızda Azərbaycan əsgərinin addım səsləri eşidiləcək! Torpaqlarımız Azərbaycanın üçrəngli bayrağına bürünəcək! Torpaqlarımızda müstəqilliyimizin rəmzi olan Dövlət himnimiz səslənəcək!

**Əsgər Səid Hüseynov:**

- Azərbaycan Ordusu bu gün xalqımızın şərəfli tarixinin növbəti qalibiyyət səhifəsini yazır. Ordumuz mənfur düşmənə döyüş meydanında layiqli yerini göstərir. Minlərlə azərbaycanlının qürur mənbəyi olan Vətən torpağı bu gün bizim savaşa hazır olduğumuzu görür. Azərbaycan xalqı inanır ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə zülmün kökünü kəsməyə sayılı günlər qalıb. Biz haqqımızı alacağıq. Hər bir azərbaycanlının haqq sözü torpaqların işğaldan azad olunması və sahibinə qaytarılmasıdır. Bu bizim haqq işimizdir və biz öz haqqımızı düşmənlərin canından bir-bir alacağıq. Damarlarında azərbaycanlı qanı axan biri olaraq, deyə bilərəm ki, Vətənimin torpaqlarını azad etməyincə silahı yerə qoyan deyiləm.





Havadarlarına arxayın olanlar növbəti silahlı təxribat törətdikdən, qan tökdükdən sonra arxayınlaşmaq istəyirdilər ki, başlarının üstündə Azərbaycan əsgərini gördülər. Doğma torpağından, Vətənindən, Ali Baş Komandanından güc alan Azərbaycan əsgərinin şərəf, ləyaqət, intiqam hissi bu gün od püskürür. Bu alov düşməni döyüş meydanında yandırıb kül edir. Bu, əslində, Azərbaycan xalqının illərlə sinəsini didib parçalayan qəzəbindən, qisas hissindən doğan alovdur.

Bu gün hər kəs fəxr, qürur, şərəf hissi yaşayır. Hamı qələbəyə köklənib. Böyük qələbə uzaqda deyil. Xalqımız əmindir ki, Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Belə güclü ordusu olan Vətən işğalda qala bilməz! Bir xalq ki, bütün varlığı ilə döyüşən övladlarının yanında dayanır, o ancaq qalib olacaq. Azərbaycan əsgərinə zəfərlər yaraşır. Azərbaycan xalqına qalibiyyət yaraşır.

**Əsgər Təhmin Həziyev:**

- Hər bir hərbi qulluqçu dərk edir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyi yeganə güc Azərbaycan Ordusudur. Hazırda ordumuzun güclü olması, ən müasir silahlarla təchiz edilməsi, şəxsi heyətinin döyüş meydanında qəhrəmanlıq nümayiş etdirməsi hərbi reallıqdır. Bu reallıq bizdə qürur və fəxarət yaradır, qarşı tərəfdə isə qorxu və vahimə. Azərbaycan Ordusu bir-birinin ardınca elə qələbələrə imza atır ki, bu ciddi uğurlar problemin həllində yeni mərhələ yaradacaq, keyfiyyət dəyişiklikləri formalaşdıracaq.

Torpaqlarımızın işğaldan azad olunması valideynlərimizin, komandirlərimizin, ən əsası da Vətənimizin qarşısında olan borcumuzun müəyyən mənada ödənilməsi hesab oluna bilər. Hər birimiz torpağımızı, elimizi, obamızı, Vətənimizi sevməyə borcluyuq. Vətəni sevmək böyük əxlaqi keyfiyyətdir. Bu sevgi ilə hərbi xidmətə gəlirik, bu sevgi ilə öyrədilirik. Öyrənirik ki, nəticədə Vətənimiz Azərbaycana yararlı olaq, torpaqlarımızı azad edək, xalqımızın intizarına son qoyaq. Bizlər intizara son qoymaq üçün buradayıq.

Sentyabrın 27-dən başlayan əks-həmlə əməliyyatında ordumuz gücünü, qüdrətini, yenilməzliyini düşmənə bir daha nümayiş etdirdi. Silahlı Qüvvələrimizin xalqımızın nicat yeri, qürur mənbəyi olduğu bir daha təsdiqləndi. Sevincimizi, qələbəmizi, içimizə sığdıra bilmirik… Azərbaycan xalqına bu cür qələbə yaraşır. Döyüşlərin başladığı gündən əldə etdiyimiz uğurlar xalqımızın zəfəridir. Ali Baş Komandanımızın verdiyi əmr və tapşırıqlarla Qələbə qazanacağımıza, 30 illik həsrətimizə son qoyulacağına inanırıq. Bunun üçün aylar-illər deyil, artıq günlər kifayət edəcək. Doğrudan da, işğal olunmuş torpaqları azad etmək üçün Azərbaycan Ordusuna günlər kifayətdir. Üçrəngli bayrağımızın bütün tarixi torpaqlarımızda dalğalanacağı günü gözləyirik. Bu zəfər, bu qələbə yurddaşlarımızın sabaha olan inamını, ümidini daha da yüksəltdi. Azərbaycan Ordusu qələbə əzmindədir. Qələbə Azərbaycanındır.

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir

(Əvvəli 1-ci səhifədə)



Qələbələrin başlanğıcı bildiyimiz döyüş əzmi, qələbə ruhu Azərbaycan əsgərinin döyüş rəşadəti kimi qazanılan qələbələrin ilki oldu, Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndləri işğaldan azad edildi. Bu başlanğıcın xalqın ruhunun eyni olduğunu bilmək də, qazanılan qələbələrin qədərsiz ovqatı da necə xoşdu!

Nəvəm 7 yaşındadı. Ezamiyyətdən gələndə soruşmuşdu: "Ermənilərі qovladınızmı?" Bir qədər duruxub, "Qovlayacağıq!" - demişdim. O günkü baxışlarının eyni düşüncələrimin yaxasından yapışanda nəvəmin saçlarını oxşadım, "Qovlayırıq!" dedim. Boynuma sarıldı. Səngərdə yazdığım, anasının təqdimatıyla həvəslə əzbərlədiyi "Azərbaycan əsgəri" şeirimi birnəfəsə dedi. Kövrəldik. Necə xoş kövrəlməyidi! Minlərlə ailədə belə xoş ovqat yaşadan Azərbaycan əsgərinə eşq olsun!

...Ön xəttə yaxınlaşırıq. Xəyalən eşitdiyim "Salam, Qələbə!" nidasını yolboyu neçə yerdə eşidirəm. Hərbçilərə görə göy üzünün sığalına dönən əllər görürəm. Eşitdiyim nidaların, gördüklərimin könlümü, düşüncələrimi bürüyən ovqatıyla ucalıqda bir az əvvəl döyüş əmrini yerinə yetirmiş əsgərlərimizin əhatəsindəyəm. "Döyüş əmri yerinə yetirilib. Düşmənin hərbi sursat dolu yük maşını, canlı qüvvəsi məhv edilib. Yarım saat əvvəl döyüşənlərimiz zərrəcə yorğunluq hiss etmirlər. Bu, qələbə ruhunun qüdrətidi", - baxışlarım baxışlarıyla qoşalaşmış zabit Elçin Quliyev qarşıdakı yüksəkliyin o üzünü göstərir, inamla: "Yaxın vaxtlarda söhbətimizi orada davam etdirərik", - deyir. "Hər zərbəmiz düşmənin onsuz da zəif olan gücünü azaldır, yəni, düşmən hiss edir ki, dirənişinin sonudu, dirənişləri ölümlə nəticələnəcək". Bir qədər aralıda bir az əvvəl döyüşdən qayıtmış əsgərlərimizin Dövlət bayrağını ucalıqda dalğalandırması, öpüb gözlərinin üstünə qoyması diqqətimizi çəkir. Zabitin baxışlarını qədərsiz sevgi, ehtiram bürüyür, əsgərlərə xitabən: "Siz zərbələrinizlə işğalın sonuncu döyüşünü tezləşdirirsiniz", - fikrini könlümüzü təlləndirən kəlmələrlə tamamlayır. Səsində qürur da var. Bu qürur həm də inamdı. "Böyük Qələbə təkcə bu işğalın deyil, həm də düşmənin işğala meyilinin sonu olacaq. Bundan sonra düşmən gözucu da olsa bu tərəflərə baxmağa cəsarət etməyəcək", - deyirəm. Çox yaxın dünənlərdə səngərdə əsgərlərə "Düşməni məğlub edəcəksiniz", - demişdim. Lələtəpədən əsən payız mehi Araza sarı əyilmiş söyüdün saçaqlarına daraşmışdı. Orada zabit Səbuhi Qarayev əsgərlərimizin döyüş ruhunu belə ifadə etmişdi: Əsgərlərimiz Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazırdır, bu əmr müharibəni sonlandıracaq, torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnəcək...



İndi burada döyüşdən təzəlikcə çıxmış əsgərlərin əhatəsində "Bu döyüşlər yaxın vaxtlarda məmləkət boyunca yaşanılacaq qələbə ovqatının başlanğıcıdı. Xalq hələ bugünkü döyüşünüzdən xəbərsizdi. Bu da açıqlanacaq, düşmənə vurduğunuz zərbələrdən də danışılacaq. "Bu zərbələri vuranlar kim olub?" soruşulmayacaq. Soruşularsa, cavabı "Azərbaycan əsgəridi" - deyiləcək. Sözümü bitirərbitirməz zabit Hüseyn Muradov bir qədər aralıda kəlmələşən döyüşçüləri göstərərək deyir:

- Onlar qazanılan qələbələrdən daha çox qazanılacaq qələbələrin sevincini yaşayırlar. Sizin gəlişinizdən bir qədər əvvəl burada gözəl bir sevinc yaşanıldı. İndi də yaşanılmaqdadır.

Bu kəlmələri bu ucalıqda qələbə ruhunun işığı bilirəm. Bu işıq düşüncələrimi yaxın günlərdə yaşayacaqlarımıza sarı yönəldir. Bu gözəl işıqda Ağdərəni, Füzulini, Ağdamı, Qubadlını, Zəngilanı, Kəlbəcəri, Laçını, Şuşanı işğaldan azad edəcək döyüşlərin qələbə sonluğu aydınlığıyla görünür.

"Döyüşqabağı əsgər ruhunu qələbə ruhunun özü bilmişdim. Əks-hücum kimi başlayan Böyük Qələbə döyüşlərində əsgərlərimiz bu ruhla döyüşürlər", - zabit Elçin Quliyev belə deyir. - Döyüşdən qələbəylə qayıtmış əsgərlərin əlləriylə ucalıqda dalğalanan bayrağımızı mən də öpüb bağrıma basıram. Mənə elə gəlir ki, bu anlarda burada kim olsaydı, belə edərdi; məmləkət boyunca hər yerdə dövlət bayrağımız hamının könül mülkünün şahənşahıdı...

"Komandirlərimiz həmişə bizə deyirdi ki, döyüş sərkərdənin qüdrəti, əsgərin döyüş hazırlığı, istifadəsində olan silahlarla bir sırada vətənsevərlikdən də asılıdır. Bu gün hər birimizin vətənsevərliyimiz döyüş əzmidi, döyüş əzmimiz qələbə ruhudu, qələbə ruhumuz qələbədi. Düşmənin müqaviməti qırılıb, indi düşmən qarşımızdan qaçır", - gizir Təbriz Cəfərov belə deyir.

"Öldürülən düşmənlərin çoxu öz mövqeyində öldürüldü", - əsgər Mehrab Axundov belə deyir.

"Həqiqi hərbi xidmətdən sonra birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş atam İsmayıl Abdullayevin xeyir-duasıyla yenidən hərbi xidmətə qayıtdım. Taleyimizdən razıyıq ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdəyik", - zabit Rüstəm Abdullayev belə deyir.

Ermənilər silah-sursatını, döyüş texnikasını mövqelərində ataraq qaçırlar. Amma düşmən çox uzağa qaça bilmir. Dəqiq zərbələrimizlə erməniləri məhv edirik. Ordumuzun bütün cəbhə boyu qazandığı qələbələri Böyük Qələbə tamamlayacaq! Azərbaycan əsgəri bu döyüşlərlə qalibiyyət tarixi yazır!



İctimaiyyətimiz də, düşmənin havadarları da bilir ki, Azərbaycan Ordusu düşmənin ciddi müqavimətini qırıq-qırıq edir, mövqelərini çığnayıb keçir, döyüş texnikalarını, canlı qüvvəsini məhv edir. Ermənistan öz zabitlərini, əsgərlərini ölümə özü məhkum edib, bu məhkumluğun ağrıları onu hələ çox üzəcək...

Tam qələbənizin işığını görürük, Azərbaycan əsgəri. Bu qələbəyə döyüş-döyüş yaxınlaşırsınız. Neçə gün əvvəl əsgərlərlə söhbətləşdiyim səngərlər indi arxa cəbhədi. Səngərləri sərhədlərə köçürmək amalıyla xidmət edirdiniz. Niyyətli olduğunuz məqamdı. Yaxın vaxtlarda bütün səngərləri sərhədlərimizə köçürəcəksiniz. Xalqın bu inamının gerçəkləşəcəyi günün ərəfəsindəyik. Bu əminlik sizin döyüş hazırlığınıza, qələbə ruhunuza, dövlətə, dövlətçiliyə sədaqətinizin əminliyidi...

Düşüncələrimdə qazilərin döyüş məsləhətləri şəhidlərin ruhunun dönməzliyiylə qoşalaşıb. Qazilər əsgərlərə deyir: "Döyüşürsünüz! Qalib gəlirsiniz!" Şəhidlərin ruhu deyir: "Döyüşlərdən əvvəl Dövlət himnimizi, Hərbi andı bir də xatırlayın!"

Xalq əks-hücum əməliyyatının icraçılarını Böyük Qələbənin əsgəri bilir, "Döyüşün!" deyir. Deyir ki, bu döyüşünüz müqəddəs döyüşdü. Qəhrəmanların, şəhidlərin döyüş yolunu davam etdirərək döyüşürsünüz!

Bu döyüş işğalın son nəfəsi olacaq, Azərbaycan əsgəri. Siz azərbaycançılığın, "Mən azərbaycanlıyam!" deyənlərin inamının əsgərisiniz. Döyüşünüz tarixləşəcək. Siz tarixin qalibiyyət əsgəri olacaqsınız. Siz müqəddəsliyin döyüşündəsiniz, Siz döyüşürsünüz - Azərbaycan döyüşür!

İşğala son güllə atacağın an bəşərilik tarixinin əbədilik anı kimi yaşadılacaq. Onu sizin qüdrətiniz yaşadacaq, Azərbaycan əsgəri!

Xalq döyüşünüzü Vətənin qurtuluş döyüşü bilir. Minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinə müraciət edir. Sizin döyüşünüzün səsi xalqın nəfəsiylə qoşalaşıb. Bu birlik də sizin döyüşünüzün qüdrətidi, Azərbaycan əsgəri! Xalqın murazını, niyyətini də sıranızda bilib döyüşün! Döyüşünüz müqəddəs döyüşdü. Döyüşün!

Ürəyimiz sizinlədi, Azərbaycan əsgəri. Bizim inamımızı da sıranızda bilin.

Bu ucalıqdan deyirik ki, zəfərlərin mübarək, Azərbaycan əsgəri! Yaxın vaxtlarda sizə "Torpaqlarımızı işğaldan azad etmiş son döyüşün mübarək, Azərbaycan əsgəri!" deyəcəyik!

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# “Aprel döyüşlərinin qəhrəmanı düşmən texnikasını məhv etməkdə davam edir”

*2016-cı ilin Aprel döyüşlərində düşmənin 6 tankını məhv edərək "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüş gizir Tahir Misirxanov da döyüşlərdədir. O, bu gün yenə də qəsbkarların zirehli texnikalarına dəqiq və sarsıdıcı zərbələr endirir.*



Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildirilib ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatında igidliklə vuruşan gizir T.Misirxanov şəxsi rəşadət göstərərək bu günədək düşmənin daha 11 zirehli texnikasını sıradan çıxarıb.

Azərbaycan Ordusunun qələbələrində payı olan, ümumilikdə 17 düşmən texnikasını məhv edən igid döyüşçümüz bundan qürur duyduğunu və ölkəmizin ərazi bütövlüyünün təmin olunması naminə sonadək döyüşəcəyini fəxrlə deyir.

# Hulusi Akar: Ermənistan terror təşkilatları ilə əməkdaşlığı dayandırmalı və Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxmalıdır

*Ermənistan terror təşkilatları ilə əməkdaşlığı dayandırmalı və Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxmalıdır.*

*Bu fikirləri Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın Azərbaycana hücumları ilə bağlı açıqlamasında ifadə edib.*

Dağlıq Qarabağ probleminin dərhal həll olunmasının vacibliyini vurğulayan nazir bildirib: "Hər zaman və hər yerdə qürurla ifadə etdiyimiz kimi, Azərbaycanın dərdi bizim dərdimiz, sevinci bizim sevincimizdir. Can qardaşlarımızın yanında olduq, bundan sonra da haqlı mübarizəsində sonadək Azərbaycanın yanında olacağıq".

Daha sonra Milli Müdafiə naziri Hulusi Akar deyib: “Ermənistanın Qarabağı işğal etməsi və dinc əhaliyə qarşı qətliamlar törətməsi qarşısında susanların sərgilədiyi mövqe tamamilə ikiüzlülükdür”.

Ermənistanın işğalçılıq siyasətini və avantürist davranışını sərt şəkildə tənqid edən nazir deyib: "Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar səslərini çıxarmayanlar atəşkəs çağırışı yerinə Ermənistanı Qarabağı tərk etməyə çağırsalar, daha düzgün olar. Bundan sonra daha 30 il gözləyə bilmərik. Həll mexanizminə beynəlxalq nüfuz qazandırmaq üçün fürsət yaranıb”.

# Döyüşlər ordumuzun qələbəsi ilə başa çatacaq

*Sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribata əl atması nəticəsində başlayan döyüşlər bütün cəbhə boyu davam edir. Şanlı Azərbaycan Ordusunun göstərdiyi şücaəti, əldə etdiyi qələbələri xalqımız böyük sevinc və qürur hissi ilə qarşılayır. Bir daha aydın olur ki, Ermənistan sosial-iqtisadi, siyasi, mədəni-humanitar sferalarda olduğu kimi, hərbi sahədə də Azərbaycanla rəqabət aparmaq qabiliyyətinə malik deyil və bunu hazırda cəbhədə gedən döyüşlər də sübut edir.*

Döyüşlər Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirir. Eyni zamanda, son döyüşlər erməni təbliğat maşınının Ermənistan ordusunun gücü haqqında formalaşdırdığı mifi dağıdır, bu kimi iddiaların heç bir əsası olmadığını göstərir. Bir daha bəlli olur ki, Azərbaycan dövləti, onun ordusu qüdrətlidir və bu gün uğurla tarixi torpaqlarını işğaldan azad edir.

Ali Baş Komandanımızın oktyabrın 4-də xalqa müraciəti zamanı dediyi "İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!" sözləri də sübut edir ki, düşmən haqqında yaradılan mif əsassızdır və Azərbaycan regionun ən güclü ordusuna malikdir.

Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni yaşayış məntəqələrimizi işğaldan azad edib. Bununla yanaşı, döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsini, hərbi texnikasını və digər döyüş vasitələrini - 250-dək tank və digər zirehli texnikanı, 270-dək artilleriya, yaylım atəşli raket sistemini, minaatanı, 60-dək hava hücumundan müdafiə vasitəsini, 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsini, 8 silah-sursat anbarını, 150-dək avtomobil texnikasını və 1 ədəd "S-300" zenit-raket kompleksini məhv edib. Eyni zamanda, düşmən xeyli sayda silah-sursatını, döyüş texnikasını və avtomobilini döyüş meydanında qoyub qaçıb.









Oktyabrın 7-nə olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahına, infrastrukturuna və silah-sursat anbarlarına bölmələrimiz tərəfindən artilleriya zərbələri endirilib. Yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikasından ibarət hərbi kolonu dəqiq artilleriya atəşi ilə darmadağın edilib. Ordumuzun dəqiq atəş zərbələri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib.

Əməliyyatlardan keçən müddət ərzində regionda yeni reallıq formalaşdı və Azərbaycan Ordusu döyüş və mənəvi-psixoloji hazırlığını döyüş meydanında sübut etdi. Ordumuzun torpaqlarımızı qarış-qarış azad etməsindən sonra istər Ermənistan, istər işğal olunmuş ərazilərimizdə yaşayan ermənilər, istərsə də həmin torpaqlara köçürülənlər birdəfəlik anladılar ki, Azərbaycanın niyyətləri çox ciddidir. 30 ildə onlarda belə bir əminlik yaranmışdı ki, daha müharibə mövzusu bitib. Amma bu əminlik bir neçə saata darmadağın olundu. Azərbaycan Ordusu ötən müddət ərzində iki mühüm hədəfə nail oldu. Birincisi, düşmənin müdafiə xətti kökündən sarsıdıldı və işğalçıda inamsızlıq yarandı. İkincisi, tez bir zamanda strateji mövqelər işğaldan azad edildi.

Hamıya aydın oldu ki, Azərbaycanın işğal olunan ərazilərində heç vaxt məskunlaşmaq mümkün olmayacaq. Ancaq düşmən unudur ki, bu döyüşlər mütləq şəkildə qüdrətli Azərbaycan Ordusunun zəfəri ilə başa çatacaq. Azərbaycanın tarixi torpaqlarında müqəddəs üçrəngli Azərbaycan bayrağı dalğalanacaq. Tezliklə xalqımız Böyük Qələbəni qeyd edəcək!

**"Azərbaycan Ordusu"**

# Mülki əhali və şəxsi heyət arasında təbliğat-təşviqat işləri davam edir

*Əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edir.*






Ali Baş Komandanın müraciətləri, təbrikləri və ürək sözləri, həmçinin hərbi komandanlığın müraciətləri, əldə edilən qələbələr barədə məlumatlar şəxsi heyətə və mülki sakinlərə operativ şəkildə çatdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təşviqat tədbirlərinin məqsədi ordu-xalq birliyinin daha da möhkəmləndirilməsi, Ordumuzun qüdrətinin və döyüşlərdəki uğurlarının işıqlandırılması, eləcə də əməliyyatlar zamanı rəşadət göstərən şəxsi heyətin döyüş ruhunun və qələbə əzminin təbliğ edilməsidir.

Şəxsi heyət və cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanan tədbirlər səyyar səsyayıcı stansiyalar vasitəsi ilə yayımlanan hərbi vətənpərvərlik mahnı və marşları ilə müşayiət edilir.

## "Döyüş əməliyyatları zamanı Şuşada kilsənin dağıdılmasının Azərbaycan Ordusunun fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur"

*Şuşa şəhərində kilsənin zərər çəkməsi barədə məlumatın Azərbaycan Ordusunun döyüş fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur.*

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Nazirliyin məlumatında bildirilib ki, oktyabrın 4-də Gəncəni atəşə tutarkən şəhərdəki mülki obyektlər, yaşayış binaları, o cümlədən dini memarlıq abidəsi olan İmamzadə kompleksinə ziyan yetirən Ermənistan silahlı qüvvələrindən fərqli olaraq, Azərbaycan Ordusu tarixi, mədəni, xüsusilə də dini tikililəri və abidələri hədəfə almır.

## İşğaldan azad olunmuş Suqovuşan ərazisinin "Azersky" peykindən əldə edilmiş təsviri

*İşğal altında olan torpaqlarımızın azad olunması haqqında demək olar ki, hər gün qələbə xəbərləri alırıq.*



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun azad etdiyi və artıq ölkəmizin üçrəngli bayrağının dalğalandığı Suqovuşan ərazisinin "Azersky" peykindən əldə olunmuş təsviri təqdim edilib.

AZƏRTAC xəbər verir ki, təsviri "Azərkosmos" ASC yayıb.

Ölkəmiz üçün əhəmiyyətli strateji mövqe olan Suqovuşan ərazisi uzun illərdir ki, Ermənistanın Azərbaycan torpaqlarında apardığı işğalçılıq siyasətinə və ekoloji terror fəaliyyətinə məruz qalıb.

Bu gün Azərbaycan tarixi ədalətin bərpası üçün mübarizə aparır və işğal altında olan torpaqlarımızın hər qarışını erməni vandalizmindən azad edir.

Zəfər bizimdir! Qarabağ Azərbaycandır!

## Azərbaycan Ordusunun döyüşlərdə iştirak edən qoşunlarının təminatı yüksək səviyyədədir



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, əks-hücum əməliyyatlarında iştirak edən şəxsi heyətin təminat və təchizat məsələləri dərhal həll olunur.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşunlarımızın təminatı müvafiq idarə, xidmət və qurumlar tərəfindən planlı şəkildə həyata keçirilir. Döyüşdə iştirak edən hərbi qulluqçularımız, hərbi texnika və döyüş vasitələrimiz ərzaq, geyim, məişət əşyaları, gündəlik tələbat məhsulları, silah-sursat və yanacaq-sürtgü materialları ilə sutkada 24 saat ərzində fasiləsiz təmin edilir.

Döyüş əməliyyatlarının maddi-texniki təminatı ilə bağlı heç bir problem və çətinlik yoxdur. Təminat və təchizatla bağlı qarşıya qoyulan bütün tapşırıqlar vaxtında icra olunur.

## "BMT-nin üzvü olaraq Ermənistanın işğal edilmiş əraziləri Azərbaycana qaytarmasını istəyirik"

İranın Ali Rəhbəri Seyid Əli Xamneyinin Xarici siyasət üzrə müşaviri Əli Əkbər Vilayəti Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bir daha bəyan edib.

AZƏRTAC xəbər verir ki, Ə.Ə.Vilayəti İranın nüfuzlu "Keyhan" qəzetinə müsahibəsində deyib: "Azərbaycanın işğal olunmuş əraziləri boşaldılmalıdır. Bütün ölkələrin ərazi bütövlüyünə hörmət edilməsi BMT Nizamnaməsinin əsas prinsiplərindən biridir və biz də təşkilatın üzvü olaraq, ona sadiq qalırıq. Azərbaycanın 7 rayonu Ermənistan tərəfindən işğal edilib. BMT Təhlükəsizlik Şurası bununla bağlı 4 qətnamə qəbul edib ki, onların hamısında Azərbaycanın bu bölgələrinin işğaldan azad edilməsi tələb olunur. BMT-nin üzvü olaraq Ermənistanın işğal edilmiş əraziləri Azərbaycana qaytarmasını istəyirik. Bu ərazilərin işğalı nəticəsində 1 milyondan çox azərbaycanlı köçkün düşüb. Onlar tezliklə vətənlərinə qayıtmalıdırlar".

Əli Əkbər Vilayəti diqqətə çatdırıb ki, müharibə insan itkisi və faciələrə səbəb olduğu üçün İran problemin danışıqlar yolu ilə həllinə tərəfdardır. Rəsmi Tehran da vasitəçilik etməyə hazırdır.

Qeyd olunub ki, İran bölgəyə kənardan silahlı qüvvələrin, yaxud da döyüşçülərin gətirilməsinin qəti əleyhinədir.

Gizir Abdullayev Ceyhun Tofiq oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 586
Nüsxə 4000